Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

ZÜMRÜD DADAŞZADƏ

# ZEMFİRA SƏFƏROVA

Şərq East
Qərb West
"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI
2014

Zümrüd Dadaşzadə. Zemfira Səfərova
Bakı, “Şərq-Qərb“ Nəşriyyat Evi, 2014, 32 səh.

ISBN 978-9952-498-23-3

Elmi redaktor: Həcər Babayeva
Əməkdar incəsənət xadimi, professor

Şərq East Qərb West
"Şərq-Qərb" Nəşriyyat Evi
BAKI 2014
www.eastwest.az
www.fb.com/eastwest.az
© “Şərq-Qərb“ Nəşriyyat Evi, 2014

*"Qədim, çoxəsrlik tarixə malik olan Azərbaycan mədəniyyətinin dərin kökləri, zəngin ənənələri vardır. Onun ən gözəl və rəngarəng qolu isə milli musiqimizdir. Bu musiqinin köklərini araşdırmaq, ənənələrini öyrənmək, tarixini yazmaq musiqi tədqiqatçılarımızın qürur yeri və vətəndaşlıq borcudur".*

Bu sözlər 2012-ci ildə işıq üzü görən "Azərbaycan musiqi tarixi"nin ilk cildinə ön sözdəndir. Çoxdan səbirsizliklə gözlənilən, nəşri elm, musiqi dairələrində böyük əzmlə qarşılanan bu tarixi kitabın ərsəyə gəlməsi layihənin rəhbəri, elmi redaktoru və on üç mövzunun müəllifi Zemfira Səfərovanın fədakar zəhmətinin bəhrəsidir. Alim musiqi tariximizi neçə ildir ki, məhəbbətlə tədqiq edir və müəyyən nəticələrə gələrkən qürur hissi yaşayır, öz vətəndaşlıq borcunu yerinə yetirilmiş hesab edir. Xalqın tarixini araşdırmaqdan fərəhli nə ola bilər?

"Ot kökü üstə bitər", – deyərlər. Vətənə sevgi, milli sənətə təmənnasız xidmət etmək istəyi Zemfira xanıma valideynləri tərəfindən aşılanmışdır. Musiqişünasın atası – Yusif Səfərov görkəmli neft mühəndisi,

texnika elmləri namizədi, respublikanın Əməkdar mühəndisi, iki dəfə Stalin mükafatı laureatı, Neft daşlarının ilk qurucularından idi. Anası – Cəvahir Firudinbəyli ötən əsrin 30-cu illərində Ü.Hacıbəylinin dəstəyi ilə səhnəyə gəlmiş, ustadın yaratdığı xorda oxumuş, məlahətli səsi, özünəməxsus ifa etdiyi xalq mahnıları ilə dinləyicilərin rəğbətini qazanmışdır. Ailə qayğıları onu sənətdən ayrı salsa da, musiqiyə məhəbbət hissini o, uşaqlarına təlqin edə bilmişdir: ailənin iki qız övladı – Elmira və Zemfira həyatlarını musiqiyə həsr etmişlər. Onların qardaşı – Çingiz Səfərov isə atasının yolunu davam etdirmiş, istedadlı neft mühəndisi kimi tanınmışdır.

Adı Azərbaycan fortepiano sənəti salnaməsinə yazılmış professor, Əməkdar incəsənət xadimi Elmira Səfərova (1934-1997) mahir pianoçu, konservatoriyanın nüfuzlu müəllimlərindən olmuş, onlarla istedadlı kadr yetişdirmişdir. Zemfira isə əvvəl-əvvəl Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyası nəzdində orta ixtisas musiqi məktəbində (indiki Bülbül adına məktəb) pianoçu kimi təhsil alsa da, tədricən musiqi tarixi və nəzəriyyəsinə artan marağının nəticəsi kimi musiqişünaslıq ixtisasını seçmiş, ali təhsil ocağını 1960-cı ildə əla diplomla bitirmişdir.

1962-ci ildən Zemfira Səfərova həyatını Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə bağlamış, aspirantlıqdan həmin institutun “Mu-



*Z.Səfərova rəhbəri olduğu "Musiqi tarixi və nəzəriyyəsi" şöbəsinin əməkdaşları, dissertantları və aspirantları ilə. 2011-ci il*

siqi tarixi və nəzəriyyəsi" şöbəsinin müdiri vəzifəsinə qədər yüksəlmişdir. Beş onilliyi adlayan həyat yolu ərzində alim 40-a yaxın kitab, 220-dən artıq elmi məqalə yazmış, onlarla beynəlxalq simpozium və konfransda məruzələr etmişdir. İllərin zəhməti layiqincə qiymətləndirilmiş, sənət nailiyyətləri ilə qeyd olunmuşdur: Z.Səfərova Əməkdar incəsənət xadimi (1989), Əməkdar elm xadimi (2006) fəxri adlarına layiq görülmüş, "Humay ilahəsi – 1996" mükafatının laureatı olmuş, sənətşünaslıq doktoru elmi dərəcəsini (1996), professor elmi rütbəsini (1998) almışdır. Zemfira xanım Ali Attestasiya Komissiya-

sının sənətşünaslıq və memarlıq üzrə ekspert şurasının sədri kimi çalışır. O, Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvüdür: bir müddət bu yaradıcılıq təşkilatında "Musiqişünaslıq və musiqi tənqidi" bölməsinə rəhbərlik etmişdir.

2007-ci ildə Zemfira xanım elm məbədimiz – Akademiyanın müxbir üzvü seçilmişdir. Bu yaxınlarda isə Memarlıq və İncəsənət İnstitutunun Elmi Şurası onun namizədliyini "sənətşünaslıq" ixtisası üzrə AMEA-nın həqiqi üzvlüyünə irəli sürmüşdür. Məncə, bütün bu faktlar Zemfira xanımın musiqi elmimizin həqiqi lideri kimi mövqeyini təsbit edir.

Z.Səfərovanın yaradıcılığına həsr olunmuş məqalələrin başlıqları çox səciyyəvidir: "Musiqi irsimizin ilhamlı tədqiqatçısı", "Musiqi elmimizin fədaisi", "Əsrlərə həsr olunmuş illər"... Həqiqətən, Z.Səfərova həyat illərini əsərlərə həsr edib, bir arxeoloq kimi musiqimizin ən dərin qatlarına nüfuz etməyi, tariximizin zülmətə qərq olmuş olaylarına nur saçmağı qarşısına məqsəd qoyaraq, bu məqsədə doğru inamla addımlayıb.

A.Çexov "Qağayı" pyesində personajlarından birinin dili ilə söyləmişdir: "*Yalnız önəmli və əbədi olanı təsvir edin*". Bu sözlər Zemfira xanımın həyat devizi ola bilərdi. Neçə ildir ki, o, araşdırmalarının strateji xəttini ustalıqla quraşdırıb, taktiki məsələləri həll edə-edə mühüm elmi nəticələrə gəlmək iqtidarı

sərgiləyir. *Fundamentallıq* – bu söz onun bütün tədqiqatlarını səciyyələndirir.

Onu da deyək ki, alimin əhatə etdiyi mövzular zaman çərçivəsi, elmi əhəmiyyət baxımından valeh edir. Nə az, nə çox, 13 əsr: musiqi tariximizin ən qədim qatlarından çağdaş mədəniyyətimizdə avanqard təmayüllərə kimi, "Dədə Qorqud"un musiqi dünyasından Q.Qarayevin elmi-publisistik irsinə kimi. Belə bir geniş diapazonda axtarışlar aparmaq üçün, əlbəttə, böyük erudisiya, müxtəlif metodologiyalara yiyələnmək tələb olunurdu. Çeşidli hadisələri qavramaq, təhlilə məruz qoymaq, emal edib məxsusi "qiyafə"də – elmi yozumda təqdim etmək xüsusi bir bacarıqdır. Bu baxımdan Zemfira xanımın bütöv bir təlimi haqqında danışmaq olar: bu təlim nəzəri, tarixi aspektlərlə yanaşı, fəlsəfi, estetik aspektləri də özündə ehtiva edir.

Alimin yaradıcılıq yolunun startı taleyüklü adlandırıla bilər. İlk araşdırmalarını Üzeyir Hacıbəyli kimi nəhəng sima ilə bağlayan müəllif musiqi tariximizin ümdə məsələlərini refleksiyaya məruz qoymuşdur. 50 ildən artıqdır ki, alim Ü.Hacıbəyli ilə sanki virtual dialoq apararaq yaşayır, sənətkarın yaradıcılığından təkan alaraq musiqimizin keçmişinə səyahət edir, çağdaş dönəmin müxtəlif problemlərini Üzeyir bəyin sənət prinsipləri prizmasın-



*Üzeyir Hacıbəylinin ev-muzeyi önündə. Şuşa, 1981-ci il*

dan araşdırır, milli musiqi sənətimizin gələcəyinə də nəzər salmağa cəhd göstərir.

Bu gün Üzeyirşünaslığı alimin çeşidli işlərindən kənarda təsəvvür etmək olmaz. Özü də musiqisi və şəxsiyyətinə "bənd olduğu" sənətkar haqqında Zemfira xanımın yazdıqları janr rəngarəngliyi ilə fərqlənir: burada sanballı elmi tədqiqatlar, populyar broşürlər, esse tipli məqalələr də vardır. Həmin çeşidli işlərində Z.Səfərova Ü.Hacıbəylinin yaradıcılığını kulturoloji kontekstdə təhlilə məruz qoyaraq dünya sənəti qarşısında ustadın xidmətlərini inandırıcı şəkildə isbat edə, sərgiləyə bilmişdir. Bu baxımdan alimin ilk iri araşdırması – *"Музыкально-эстетические взгляды Узеира Гаджибекова"* kitabının Moskvada nəşri (1973) faktını vurğulamaq istərdik. Bu,

əslində, Üzeyir bəyi geniş oxucu kütləsinə təkcə bəstəkar deyil, həm də alim kimi hərtərəfli təqdim edən ilk sanballı kitabdır.

Tədqiqatda Ü.Hacıbəylinin elmi konsepsiyasının kamilliyini, estetik baxışlarının sərrastlığı və uzaqgörənliyini qabarıq göstərən Z.Səfərova mücərrədçilikdən uzaq olub, bütün müddəalarını bəstəkarın konkret musiqi əsərlərindən nümunələrlə parlaq surətdə əsaslandırır. Alim isbat edir ki, Üzeyir bəyin nəzəriyyəsi onun bəstəkar kimi yaradıcılığı ilə tam vəhdət əmələ gətirir. Çünki Ü.Hacıbəyli üçün doğma xalqının musiqisi, Zemfira xanımın yazdığı kimi, "*ölü kapital deyil, canlı, bütöv sistemdir ki, xalq öz "musiqi barigahını" onun əsasında qurur*". Əgər Ü.Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları"nı yazmaqla milli musiqimizin gizli kodunu açıqlayırsa, Z.Səfərova Üzeyir bəyin qənaətlərinin qlobal önəmini təsbit edir.

Qara Qarayev kitaba yazdığı ön sözdə aşağıdakı fikri vurğulayır: "*Müasir Azərbaycan musiqişünaslıq ədəbiyyatında Azərbaycan musiqisinin estetik problemləri ötəri şəkildə – bu və ya digər elmi mövzu ilə əlaqədar tədqiq edilmişdir. Gənc musiqişünas Z.Səfərova öhdəsinə çətin iş götürmüşdür – tədqiqatını bütövlükdə bu mövzuya həsr etmişdir... Kitabın müəllifi Ü.Hacıbəylinin çox mürəkkəb və çoxcəhətli, Azərbaycanın keçmişi, bu günü və gələcəyi ilə bağlı vacib problemlərə toxunan*

*estetik konsepsiyası haqqında qanunauyğun və doğru əks edilmiş nəticələrə gəlir*".

Ötən əsrin 70-ci illərində musiqi estetikası ilə bağlı araşdırmaların qıtlığını Z.Səfərovanın "Üzeyir Hacıbəyovun musiqi-estetik görüşləri" tədqiqatına rəy verən tanınmış alimlər – A.Dmitriyev, İ.Rıjkin, F.Karomatov da qeyd edirdilər. Üstəlik vurğulayırdılar ki, Zemfira xanıma dahi bəstəkarın estetik konsepsiyasını yaradıcılığı ilə sıx təmasda araşdırmaq müyəssər olmuşdur. Onu da deyək ki, elmi müşahidələrini genişləndirərək, qənaətlərini dəqiqləşdirərək usanmaz alim illər sonra *"Üzeyir Hacıbəyovun yaradıcılığında nəzəri və estetik problemlər"* adlı monoqrafiyasını (1985) oxucuların mühakiməsinə təqdim etmişdir.

Maraqlıdır ki, Z.Səfərovanın tədqiqatlarını başqa sahələrin mütəxəssisləri də diqqətsiz qoymamışlar. Məsələn, məşhur kulturoloq, filosof Georgi Qaçev "Dünyanın milli obrazları. Qafqaz. Rusiyadan Gürcüstana, Azərbaycana, Ermənistana intellektual səyahət" kitabında (Moskva, 2002) bir çox məsələləri kulturoloji aspektdə incələyərək, o cümlədən milli xarakter və musiqi qanunauyğunluqları arasında ortaq nöqtələr arayıb axtarır və bu zaman Z.Səfərovanın kitabından ayrı-ayrı mülahizələrdən bəhrələnir. Yəni Ü.Hacıbəylinin üzə çıxardığı qanunauyğun-

luqlara bir növ Zemfira xanımın gözü ilə baxıb, onları (məsələn, musiqinin kəskin sıçrayışlardan kənar rəvan inkişafını, ritmik xüsusiyyətlərini) azərbaycanlıların dünyaduyumu, temperamenti ilə əlaqələndirir.

Ü.Hacıbəyli sənətinin dünya miqyasında tanıtdırılmasında Z.Səfərovanın 1985-ci ildə bəstəkarın 100 illik yubileyi ərəfəsində yeddi dildə işıq üzü görən elmi-populyar kitabının (sonralar serb və ərəb dillərinə tərcümə olunub) rolu da danılmazdır. Bu sırada Z.Səfərovanın ingiliscə çap etdirdiyi *"Uzeyir Hajibayov and his outstanding predecessors"* məqalələr toplusu (2005) da qeyd olunmalıdır. Ümumiyyətlə, "Üzeyir Hacıbəyli. Biblioqrafiya" məlumat kitabından (2009) bəlli olur ki, müxtəlif ölkələrin oxucuları dahi sənətkarımız haqqında dolğun informasiyanı elə, əsasən, Z.Səfərovanın xarici dillərdə çap olunmuş monoqrafiya və məqalələrindən əxz edə bilərlər.

Sənətkarın 125 illiyi ərəfəsində Zemfira xanım uzun müddət ərzində yazdığı məqalələri toplayaraq *"Ölməzlik"* adlı kitab çap etdirmişdir. Üç – Azərbaycan, rus və ingilis dillərində nəşr olunan kitab öz həcmi (600 səhifə) ilə valeh edir. Bu toplu bir tərəfdən Ü.Hacıbəylinin çoxcəhətli yaradıcılığı barədə dolğun təsəvvür yaradır, digər tərəfdən Zemfira xanımın dahi sənətkarın ölməz irsinin tədqiqi işində əldə etdiyi elmi nəticələri əyani sərgiləyir.




*Bəstəkarlar İttifaqında "Ölməzlik" və "Dedim, dedilər" kitablarının təqdimatında müsahibə verərkən. 2010-cu il*

Z.Səfərova elə bir geniş tarixi-mədəni kontekst yaradır, dünya musiqisi tarixinə elə maraqlı ekskurslar edir, elə gözlənilməz paralellərə əl atır ki, son nəticədə "Üzeyir Hacıbəyli" mövzusu onun təqdimatında polifonik səslənmə əldə edir. Üzeyir bəy öz dahi sələfləri – Urməvi, Marağai, Nəvvabla dialoqa girir, müasirləri – Zərdabi, Mirzə Cəlil, ümumən molla nəsrəddinçilərlə fikir mübadiləsi aparır, xələflərinə – tələbələrinə, gələcək nəsildən olan musiqiçilərə müdrik tövsiyələrini edir.

İlk bəstəkarımızın irsinin *akademik nəşrinin* ərsəyə gəlməsi kimi önəmli iş də Z.Səfərovanın adı ilə bağlıdır. Biz haqlı olaraq musiqi tariximizdə yeni, bəs-

təkarlıq mərhələsini 1908-ci ildən – "Leyli və Məcnun" operasının ilk tamaşasından başlayırıq. Lakin bu faktı sənədləşdirmək baxımından opera partiturasının nəşri çox zəruri idi. Böyük zəhmət, vaxt tələb edən bu layihənin gerçəkləşdirilməsini məhz Z.Səfərova boynuna götürür, iş əsnasında külli miqdarda yaradıcılıq, təşkilati məsələləri həll etməli olur.

Şərqin ilk operası "Leyli və Məcnun"un mükəmməl partiturasının 1983-cü ildə işıq üzü görməsi həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda yüksək qiymətləndirilir. Fikrət Əmirov 1984-cü ildə "Kommunist" qəzetinin səhifələrində yazırdı: "*İlk opera – ilk partitura! Bu iki faktın bir-biri ilə bağlılığı, məntiqi əlaqəsi qəlbimizi fərəh hissi ilə çırpındırır... Respublikada ilk dəfə olaraq çoxcildlik musiqi külliyyatının nəşrini yüksək səviyyədə icra etməkdən ötrü bu işin metodologiyasını yaratmaq, mənimsəmək, həyata keçirmək tələb olunurdu. Z.Səfərova birinci cildə həm də geniş, elmi cəhətdən əsaslandırılmış ön söz yazmış, dərin, səmərəli tədqiqatın nəticəsi olan əhatəli şərhlər vermişdir*". F.Əmirov Z.Səfərovanın, birinci cildin xüsusi redaktoru bəstəkar N.Əliverdibəyovun xidmətlərini qeyd edir, akademik nəşr üçün "*düzgün, dəqiq iş üsulunun müəyyənləşdirilməsi*" fikrini vurğulayır.

Sonrakı illərdə akademik nəşr üzərində iş davam etdirilir: bir-birinin ardınca "Leyli və Məcnun"un kla-

viri, "Koroğlu"nun I-III pərdələrinin partituraları da çapdan çıxır. 1990-cı illərin əvvəlində ölkəmizin ictimai-siyasi durumunun qeyri-sabitliyi və bunun nəticəsi kimi törəyən iqtisadi çətinliklər ucbatından nəşrin çapı müvəqqəti dayandırılmışdır. Lakin Zemfira xanım bu məsələni bir an diqqətindən kənarda qoymayaraq, nəhayət, 2004-cü ildə xüsusi redaktor dirijor Rauf Abdullayev ilə birgə operanın IV və V pərdələrinin nəşrini də həyata keçirmişdir.

Z.Səfərova tədqiqatlarının ictimai, hətta siyasi əhəmiyyətinə də diqqət yetirmək gərəkdir. Yaşadığımız dövr Azərbaycan xalqının mənəvi irsinin qorunub saxlanılması, təbliği, gələcək nəsillərə mümkün qədər tam şəkildə çatdırılması kimi vəzifələri aktuallaşdırır. Mədəniyyətimizin "intellektual qarət"ə məruz qaldığı indiki şəraitdə həmin qarətin əsas hədəflərindən birini – Ü.Hacıbəylini mühafizə etmək, sənət sahəsində əks-təbliğatı gücləndirmək gərəkdir.

Əslində, alimin bütün fəaliyyəti məhz bu məqsədə xidmət edir. O, məqalələrindən birində yazır: "*Hər bir xalqın musiqi mədəniyyətindən, irsindən yalnız o vaxt danışmaq olar ki, o xalq, ilk növbədə, özü öz irsini qiymətləndirib yaşatmağı bacarsın*".

Z.Səfərovanın araşdırmalarının daha bir qəhrəmanı alim, şair, musiqişünas, rəssam, görkəmli maarifçi *Mir Möhsün Nəvvabdır*. Bu adın elmi ictimaiyyətə tanıtdırılmasında Zemfira xanımın xidməti əvəzsizdir.

Azərbaycan dilində ilk musiqi risaləsi – Nəvvabın "Vüzuhül-ərqam"ını giriş sözü və şərhlərlə nəşr etdirən Z.Səfərova faktiki olaraq Azərbaycan musiqişünaslığında mənbəşünaslığın əsasını qoymuşdur. Alimin illər öncə M.M.Nəvvab haqqında yazdığı kitab (1983), habelə Səmərqənd II Beynəlxalq musiqişünaslıq simpoziumunda etdiyi məzmunlu məruzə – burada müvafiq musiqi nümunələrini görkəmli tarzən Bəhram Mansurov illüstrasiya etmişdir – müxtəlif ölkələrdən gəlmiş mütəxəssislərdə maraq doğurmuşdu. Məsələn, tanınmış özbək musiqişünası A.Cumayevin Zemfira xanımın işlərinə istinad etməsi faktı çox səciyyəvidir.

M.M.Nəvvab haqqında araşdırmanı Z.Səfərova sənətkarın vətənində – Şuşada yazmağa başlamışdır. O zaman musiqişünas Şuşanın görümlü-baxımlı yerlərini seyr edər, Nəvvabın yaşadığı evə baş çəkər, yəni şəhərin sanki musiqinin özündən yoğrulmuş ab-havasından ilham alarmış. Odur ki kitab belə canlı, oxunaqlı alınmış, Nəvvabı bizə sevdirmiş, doğmalaşdırmışdır.

Alim sonralar da bu yöndə axtarışlarını davam etdirərək mətnşünaslıq prinsipləri əsasında görkəmli musiqi xadimlərimizin əsərlərini nəşr etdirmiş, mənbəşünaslığı yeni tədqiqatları ilə zənginləşdirmişdir.

Ötən əsrin 90-cı illərində Zemfira xanımın yaradıcılığında daha bir mövzu səslənir. Özü də necə – etirazedici, ürək yanğısı ilə! Alim *"Şuşa Azərbaycan musiqisinin məbədidir"* mövzusunda tədqiqat işi apararaq, topladığı qiymətli materiallarla ictimaiyyəti tanış edir – məruzələr oxuyur, məqalələr dərc etdirir. Onun Şuşa haqqında yazısının 2002-ci ildə Moskvanın «Музыкальная Академия» kimi mötəbər jurnalında dərc olunması müstəsna hadisədir. Məqalə aşağıdakı prinsipial əhəmiyyət daşıyan sətirlərlə başlanır: "*Dünyada bir neçə şəhər var ki, musiqi onun hər daşına, qalasına, ab-havasına hopmuşdur. Belə şəhərlər Avstriyanın Vyana, İtaliyanın Neapol, Qarabağın da Şuşa şəhəridir. Qarabağın ən füsunkar guşələrindən biri Şuşa Azərbaycan musiqisinin məbədi və beşiyidir. Şəhər, haqlı olaraq, "Qafqazın konservatoriyası" adlandırılmışdır. Bir çox məşhur Azərbaycan musiqiçiləri – müğənnilər, ifaçılar, bəstəkarlar Şuşanın yetirmələridirlər*". Sonra alim emosiyaya qapılmayaraq, təmkin, qürur və sevgi ilə Şuşanın zəngin musiqi həyatından bəhs edir. Burada Zemfira xanımın bir alim kimi önəmli keyfiyyətləri – tam obyektivliyi, etibarlı mənbələrə arxalanmaq səyi, hər bir fikri isbat etmək bacarığı bir daha əyani şəkildə özünü göstərir.

Odur ki məqalənin sonunda Z.Səfərova: "*Biz inanırıq, əminik ki, gün gələcək, Qarabağda, Şuşada,*

*onun Cıdır düzündə, İsa bulağında yenə "Qarabağ şikəstəsi" səslənəcək, yenə xalq mahnısı "Qarabağda bir dənəsən" oxunacaq və yenidən yeni "Qarabağ bülbülləri" cəh-cəh vuracaq!*" – yazanda biz müəllifin qətiyyətinə qoşulur, onun bir vətənpərvər, bir vətəndaş kimi mövqeyini alqışlayırıq.

Hər bir adamın həyatında zirvə məqamı olur. Zemfira xanım üçün həmin məqam 1996-cı ilə təsadüf etdi. Məhz o zaman alimin həyatının başlıca işi, elmi yaradıcılığının tacı – *"Azərbaycanın musiqi elmi"* fundamental tədqiqatı doktorluq dissertasiyası kimi müdafiə olundu, iki il sonra kitab şəklində işıq üzü gördü. 36 çap vərəqi (583 s.) həcmində bu nəhəng – başqa epitet tapmaq çətindir – nəşrdə əsas analitik hissədən başqa təhlil olunan risalələrin oxucular tərəfindən qavranılmasını asanlaşdırmaq məqsədilə S.Urməvi, Ə.Marağai, M.M.Nəvvabın istifadə etdiyi *qədim musiqi terminləri lüğəti* (tərtibçi – Z.Səfərova), habelə Marağainin musiqi əsərlərinin açımları – not əlavələri də yer alıb.

Alim tədqiqatını müxtəlif elmlərin – tarix, musiqişünaslıq, kulturologiya, estetika – çarpazında həyata keçirərək, faktiki Azərbaycan musiqi tarixinin bu vaxtacan kölgədə qalan böyük bir mərhələsini bərpa edə bilmişdir.

Vacibdir ki, Azərbaycan musiqi elmi Yaxın və Orta Şərqin musiqi tarixinin tərkib hissəsi kimi tədqiq olu-

nur. Bunu tanınmış musiqişünas L.Karagiçeva da dəqiq vurğulayır: "...*Urməvidən başlayaraq, Marağaidən Nəvvaba qədər Azərbaycan musiqi elminin əsaslarını qoymuş sonrakı məşhur nəzəriyyəçilərin əsərlərini də araşdıraraq, Urməvi xələflərinin yaşadıqları və yaratdıqları tarixi-mədəni mühitə əsaslanaraq, Z.Səfərova bizim böyük müasirimiz Üzeyir Hacıbəylinin bu sələflərlə dərin əlaqələrini və elmi kəşflərinin davamlılığını dəlillərlə sübuta yetirir və bununla da musiqi haqqında Azərbycan elmi-estetik fikrini ümumi Yaxın Şərq inkişaf prosesinə daxil edir*".

Azərbaycan musiqisinin dahi nümayəndələrinin adlarının bilgi dairəmizə əsaslı şəkildə daxil olması Z.Səfərovanın nailiyyətləri sırasındadır. Hər bir azərbaycanlının uşaqlıqdan tanıdığı astronom N.Tusi, memar Əcəmi, miniatür ustası Sultan Məhəmməd, şairlər Nizami, Füzuli... ilə yanaşı, bir cərgədə indi S.Urməvi, Ə.Marağai kimi sənət korifeyləri də durur. Bu baxımdan Z.Səfərovanın işini ədəbiyyat tariximizin yaranmasında böyük xidmətləri olan S.Mümtazın, F.Köçərlinin fəaliyyəti ilə müqayisə etmək olar. Zemfira xanım da bu ədəbiyyat xadimləri kimi elmi araşdırmalarının ictimai əhəmiyyətini dərk edir. Asan müvəffəqiyyət, sürətli elmi karyeradan imtina edərək – alimin namizədlik və doktorluq dissertasiyalarını təxminən 25 illik müddət bir-birindən ayırır

– ağır zəhmətə qatlaşıb, Z.Səfərova Azərbaycan musiqi elminin müfəssəl, dürüst tarixini ərsəyə gətirmişdir. Belə bir nəhəng işi, əlbəttə, "bir atımlıq barıtı" olan adam həyata keçirə bilməzdi.

Onu da vurğulayım ki, Marağainin musiqi əsərlərinin tapılması, səsləndirilməsi də Zemfira xanımın adı ilə bağlıdır. Axı belə bir fikir mövcud idi ki, bu böyük alim və bəstəkarın əsərləri bizim günlərə gəlib çatmamışdır. Z.Səfərovanın tapıntıları həmin qərarlaşmış fikri təkzib etdi. Məcnun Kərimovun yaratdığı və uzun illər rəhbəri olduğu Qədim Musiqi Alətləri Ansamblı Marağainin əsərlərini müntəzəm ifa edir. M.Kərimov habelə Urməvinin icad etdiyi ***nüzhə*** alətini Z.Səfərovanın təsvirlərinə əsasən bərpa etmişdir. Doğrusu, qanunabənzər bu alətin ecazkar səslənməsini "Ölməzlik" kitabının prezentasiyasında ilk dəfə eşidənlər böyük təlatüm keçirdilər: axı "Azərbaycan musiqi tarixi" kursunda dəfələrlə bu alət haqqında danışdığımız halda onun nə vaxtsa "canlandırılaraq dil açmasını" heç təsəvvürümüzə gətirə bilməzdik. Əsrlər sonra Bəstəkarlar İttifaqının Ü.Hacıbəyli adına müasir konsert salonunda ulu Şərqin böyük bəstəkarı S.Urməvinin musiqisinin (Z.Səfərovanın açımında) nüzhədə ifa olunması, şübhəsiz, rəmzi məna daşıyan əlamətdar hadisə idi.

"Azərbaycanın musiqi elmi" kitabının* 1998-ci ildə Nizami adına Ədəbiyyat Muzeyində keçirilən təqdimat mərasimində çıxış edənlər – S.Ələsgərov, R.Zöhrabov, F.Bədəlbəyli, F.Əlizadə, M.Kərimov, E.Babayev, Ü.İmanova, F.Köçərli, O.Əfəndiyev, G.Əlibəyli, H.Abbaszadə, Elçin, R.Hüseynov – musiqiçilər, filosoflar, yazıçılar qürur hissini gizlətmir, Azərbaycan elminin qələbəsinə ürəkdən sevinirdilər.

Akademik Tofiq Hacıyev "Ədəbiyyat qəzeti"nin səhifələrində yazırdı: *"Azərbaycanın musiqi elmi" kitabı məndə belə bir təəssürat yaratdı ki, xanım tədqiqatçımızın XIII-XV və XIX-XX əsrlər musiqi mədəniyyətinin dahiləri ilə bağlı yaratdığı təsəvvür, məsələn, böyük ədəbiyyatşünasların və tədqiqat institutlarının bütövlükdə ədəbiyyat tariximizdəki həmin səviyyəli nəhəng söz ustaları haqqında verdikləri məlumatdan dərin və müfəssəldir... İstərdim ki, bu kitab universitetimizin filologiya fakültələrində ixtisas (seçmə) kursu şəklində keçirilsin. Bu, ədəbiyyat tarixinin öyrənilməsində filoloq tələbələr üçün çox faydalı olardı*".

Z.Səfərovanın kitabı Rusiyada, Mərkəzi Asiya ölkələrində, İranda, Türkiyədə də maraqla qarşılanmışdır. Məsələn, musiqişünas, professor Firat Qızıltuğ "Ayyıldız" qəzetində yazırdı: "*Zemfira Səfərovanın "Azərbaycanın musiqi elmi" adlı kitabını böyük bir həyəcanla*

* Kitab ikinci dəfə latın qrafikası ilə çap olunmuşdur.
Bakı: Şərq-Qərb, 2006.

*qarşıladıq. Çünki Türk musiqisi tarixinin indiyədək bilmədiyimiz səhifələrindən bir bölümünü işıqlandıran daha bir əsər qazanmış olduq*". İstambul konservatoriyasının musiqişünaslıq bölümünün müdiri Süleyman Şenel isə yazırdı ki, Z.Səfərovanın "Azərbaycanın musiqi elmi" kitabı "*təkcə Azərbaycan və türk dünyası üçün deyil, eyni zamanda dünya musiqişünaslığı üçün də bir qazancdır*". Əsər bütün sonrakı araşdırmalar üçün bir növ *"sütun"* (Ə.Salamzadə) rolunu icra edir, alimləri nəzəri və metodoloji baxımdan silahlandırır.

Musiqi irsimizin tədqiqatçısı... Zemfira xanımı çox zaman bu sözlərlə səciyyələndirirlər. Lakin alimə hər hansı bir mövzu məhdudiyyəti yabançıdır.

Ötən əsrin 80-ci illərində Z.Səfərova *Q.Qarayevin elmi-publisistik irsinin* tədqiqi ilə məşğul olmağa başlayır. Zahirən asan görünə bilən bu vəzifəni – axı Qarayev müasirimizdir – həll edərkən alim müəyyən çətinliklərlə üzləşir: bəstəkar arxiv toplamadığından, onun məqalələri pərakəndə vəziyyətdə idi. Alim mövzu ilə bağlı çoxçeşidli materialları səbirlə yığır, sistemləşdirir, təhlil edir və 1988-ci ildə gördüyü mürəkkəb işin nəticələrini kitab şəklində oxuculara təqdim edir. Həmin kitab XX əsrin böyük bəstəkarını həm də alim, tamamlanmış estetik konsepsiyaya malik sənətkar kimi tanıtdırmaq baxımından əhəmiyyətlidir.

Zemfira xanımın hələ 1967-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetinin səhifələrində dərc etdirdiyi *"Üçüncü simfoniya haqqında düşüncələr"* məqaləsi onun Azərbaycan musiqisinin müasir mərhələsində yaranan problemlərə varmaq bacarığını aşkarlayır. Xatırladım ki, həmin məqalə sovet musiqisində avanqard yazı üsullarının istifadəsi barədə diskussiyaların hələ səngimədiyi bir dövrdə yazılmışdır. Zemfira xanım Q.Qarayev simfoniyasının musiqi dilinin yeniliyini çağdaş həyatın mürəkkəbliyi ilə müqayisə edir, oxucuları ehkamlardan azad olub sənətin dinamikasını duymağa səsləyir.

Yazımız boyu qəhrəmanımızı mümkün qədər dolğun səciyyələndirmək məqsədilə bir sıra önəmli sözlərdən – səbir, təkid, iradə, tələbkarlıq – istifadə etdik. Həmin sıraya "narahatlıq" sözünü də əlavə edərdim. Bu məqamda alimin özünə söz verək: "*Hər hansı bir iri layihəni tamamladıqdan sonra öz-özümə deyirəm: bəsdir, son durğu işarəsini qoymaq vaxtıdır. Lakin elmi qayğılardan kənar rəvan həyat məni bezikdirir və mən yeni tədqiqatlara girişirəm, planlar qurmağa başlayıram*".

Doğrudan da, Zemfira xanım doktorluq dissertasiyasını parlaq şəkildə müdafiə etdikdən sonra ara vermədən, sanki ikiqat həvəslə yeni tədqiqat işlərinə qatılır, neçə-neçə kitab dərc etdirir. Məsələn, Azərbaycan və rus dillərində məqalələr toplularını –

*“Həmişəyaşar ənənələr”* (2000), *“Сеять разумное, доброе, вечное...”* (2002), tərtibçisi və elmi redaktoru olduğu *“Qara Qarayevi anarkən”* (2002) kitabını, Ü.Hacıbəyliyə ithaf olunan *“Ölməzlik”* (2012) məqalələr məcmuəsini qeyd edək. 2006-cı ildə Heydər Əliyev Fondunun “Muğam – irs” layihəsi çərçivəsində Z.Səfərova Səfiyəddin Urməvinin *“Kitabül-ədvar”*ının, *“Şərəfiyyə”*sinin, habelə Fətullah Şirvaninin *“Musiqi məcəlləsi”*nin akademik nəşrini ön söz və şərhlərlə çapa hazırlamışdır. Ərəb dilində yazıldığı üçün fəal istifadə dairəsindən kənarda qalan bu risalələrin ilk dəfə Azərbaycan dilində işıq üzü görməsi, əlbəttə, orta əsrlər üzrə musiqi sənətinin nüfuzlu alimi Zemfira xanımın zəngin irsimizə sahib çıxmaq naminə məqsədyönlü araşdırıcılıq işinin nəticəsi olub, mühüm elmi hadisə kimi qiymətləndirilməlidir.

Böyük sənətkar Cabbar Qaryağdıoğluna həsr olunmuş *“Şərq musiqisinin peyğəmbəri”* (2008) kitabı* Z.Səfərovanın daha bir yaradıcılıq qələbəsi adlandırıla bilər. Bu kitabı alimin musiqimizin tarixi ilə bağlı tədqiqat əsərlərinin, bu tarixin halqabahalqa bərpasına yönələn axtarışlarının məntiqi davamı kimi nəzərdən keçirmək məqsədəuyğundur. Zemfira xanım “Azərbaycan muğamı” məfhumunun ər-

* Kitab rus dilində də nəşr olunub: Пророк восточной музыки. Баку: Şərq-Qərb, 2011



*Cabbar Qaryağdıoğlunun 150 illik yubiley gecəsində çıxış edərkən. Beynəlxalq Muğam Mərkəzi, 2011-ci il*

səyə gəlməsində böyük rolu olan yaradıcı xanəndə Cabbar Qaryağdıoğlunun məftunedici obrazını yaratmışdır. Kitabı oxuyandan sonra belə bir qənaətə gəlirsən: C.Qaryağdıoğlunun adı XX əsrdə təşəkkül mərhələsini yaşayan yeni Azərbaycan mədəniyyətinin ən önəmli simaları – Zərdabi, Haqverdiyev, Sabir, Mirzə Cəlil və ilk növbədə, Üzeyir bəylə bir sırada çəkilə bilər. Qaryağdıoğlu Ü.Hacıbəylinin məsləkdaşı kimi göz önündə canlanır: dövrün çağırışlarına əzmlə cavab verir, səsinin qrammofon valına yazılması təklifinə də həvəs göstərir, kinofilmdə çəkilməkdən də

boyun qaçırmır ("Neft və milyonlar səltənətində" (1916, rej. B.Svetlov) filmi nəzərdə tutulur), əlbəttə, musiqi təhsilinin quruculuğu, gənc nəslin tərbiyəsi işində də can-başla iştirak edir.

Tədqiqatın məziyyətlərindən biri də odur ki, Z.Səfərova ilk dəfə xanəndənin uzun illər arxivdə yatıb qalan maraqlı bir yazısı – "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr"indən ətraflı söz açır, onun ayrı-ayrı müddəalarını şərh edir. Alim xüsusi olaraq vurğulayır ki, bu işi "*adi xatirələr kimi yox, istedadlı folklorşünasın musiqimiz haqqında qiymətli və sanballı tədqiqat əsəri*" kimi dəyərləndirir. Z.Səfərova ilk dəfə C.Qaryağdıoğlunun "Üç uşaq" nəğməsinin melodiyasını xanəndənin qızı Şəhla xanımın ifasından nota köçürərək oxucuların diqqətinə çatdırır. Sənətkarın ifa etdiyi 50 mahnının not yazısının kitabın sonunda yerləşdirilməsi (mahnıları fonovaliqə yazan Bülbül, nota köçürən S.Rüstəmovdur) xanəndənin musiqimizdəki rolunu bir növ əyaniləşdirir.

2012-ci ildə Z.Səfərova həyatının başlıca məqsədini reallaşdırdı – *"Azərbaycan musiqi tarixi"*nin ilk cildini öz həmvətənlərinə ərmağan etdi*. Alimin bütün elmi nailiyyətlərini keyfiyyətcə yeni səviyyədə ümumiləşdirən bu kitab səlis konsepsiyası, fəsillərin

* Bu cild rus dilində də nəşr olunub: История музыки Азербайджана (от древних времен до XX века). Баку, Элм, 2014

bir-biri ilə məntiqli bağlılığından doğan mükəmməl quruluşu ilə fərqlənir. Akademik Teymur Bünyadov kitabın təqdimat mərasimində aşağıdakı fikri vurğulayırdı: "*Üçcildlik "Azərbaycan etnoqrafiyası", yeddicildlik "Azərbaycan tarixi" və s. nəşrlərlə yanaşı, sazlı-sözlü Azərbaycan musiqisi haqqında kitabın hazırlanması mədəniyyət tariximizdə mühüm hadisədir*".

"Musiqi dünyası" jurnalı (2012, №4) isə kitabın ərsəyə gəlməsini alqışlayaraq yazırdı: "*Bu, Tarixdir. Xalqımızın tarixi, onun musiqi mədəniyyətinin tarixi. Mədəniyyətimizin nailiyyətləri isə çoxdan bəri lokal xarakter daşımır, ümumdünya musiqi mədəniyyətinin tarixində layiqli yer tutur. Elmi dərəcəsindən asılı olmayaraq, hər bir alim üçün belə layihədə iştirak etməkdən daha şərəfli heç nə yoxdur*".

Burada Z.Səfərovanın başladığı işi yekunlaşdırmaq, iri layihələrə ustalıqla rəhbərlik etmək bacarığını da qeyd edərdim. Kitabın böyük hissəsini öz araşdırmaları əsasında hazırlayan Zemfira xanım ətrafına gözəl mütəxəssislər yığıb, onları "təşkilatlandıra" bilmişdi. Elmi icrasının yüksək səviyyəsi ilə fərqlənən bu kitabın Azərbaycan musiqi tarixini sonralar araşdıran alimlər, bu tarixlə maraqlanan insanlar üçün ən etibarlı mənbə olacağı şübhəsizdir.

Zemfira xanım çox tələbkar pedaqoqdur, hər bir məsələyə – mövzu seçimindən, onun aktuallığından tutmuş işin icrasına, mətndəki üslubiyyat səhvlərinə

qədər – çox ciddi və məsuliyyətlə yanaşır, əsas diqqətini icra olunan tədqiqatların *keyfiyyətinə* yönəldir. Alim çıxışlarından birində həyəcanla söyləyirdi: "*Nədənsə bəstəkar və ya ifaçıdan danışarkən deyirlər ki, onun istedadı Allah vergisidir. Lakin musiqini araşdırmaq, təhlilə məruz qoymaq, müəyyən elmi nəticələr əldə etmək – bütün bu keyfiyyətlər də istedada dəlalət etmirmi?*" Z.Səfərova həmkarlarını Ü.Hacıbəyli, Q.Qarayev kimi sənətkarların vəsiyyətlərini unutmamağa, musiqişünaslığın nüfuzunu mühafizə etməyə səsləyir.

Son zamanlar Zemfira xanım nəinki tədqiq edir, həm də tədqiq olunur. Bu mənada onun 2012-ci ildə nəşr olunan, adı aşıq ədəbiyyatından əxz edilən kitabı – *"Dedim, dedilər"* – səciyyəvidir. Burada Zemfira xanımın məqalələri ilə yanaşı, onun öz yaradıcılığı, elmimizə bəxş etdiyi töhfələr haqqında da materiallar əksini tapmışdır. Yeri gəlmişkən bir neçə il öncə ərsəyə gələn daha iki nəşr – Z.Səfərovanın yaradıcılığını işıqlandıran "*Əsrlərə həsr olunmuş illər*" (2007) məqalələr toplusu, habelə "Azərbaycanın elm və mədəniyyət xadimləri" silsiləsindən "*Zemfira Səfərova. Biblioqrafik göstərici*" (2010) kitabçası da xatırlanmalıdır.

Zemfira Səfərovanın portretinin tamamlanması məqsədilə daha iki kitabın xatırlanmasını önəmli hesab edirəm. Onlardan biri – *"Ardı yaşanılır"* (2000) –

alimin şirin, acı həyat xatirələrini əks etdirir və onun bədii mətnlər yazmaq istedadını üzə çıxarır. Zemfira xanım öz ailəsi, uşaqlığı, gəncliyi, müxtəlif adamlarla görüşləri barədə yazır, amma bütün təəssüratlar, şəxsi bioqrafiyanın faktları arxasında dövrün ab-havası sezilir: Stalin dönəminin repressiyaları, "ilin 12 fəsli bahar ətirli" (E.Klimov) 60-cı illərin ümid bolluğu, ötən əsrin 80-90-cı illərinin mənəvi sarsıntıları...

Z.Səfərova Azərbaycanın müasir ziyalı qadınlarının nadir nümayəndələrindən biridir. O, ciddi elmi işi ailə həyatı, övladlarının təlim-tərbiyəsi ilə üzvi şəkildə uzlaşdırmağa müvəffəq olmuşdur. Çünki xoşbəxtliyin N.Hikmət formuluna uyğun olaraq, o, səhər işə həvəslə gedir və işdən də evə eyni həvəslə qayıdır. Zemfira xanımın ömür-gün yoldaşı Anar müəllimlə "məhəbbətdən artıq" davamlı münasibətləri (50 ildən çox) Azərbaycan mədəniyyət tarixinin önəmli hadisəsi adlandırıla bilər. Təsadüfi deyil ki, həmin "önəmli hadisə" diqqətsiz qalmamış, həmkar, dost, qohum-qardaşın ürək sözlərini ehtiva edən *"50 illik nağıl"* (2012) kitab-albomunun ərsəyə gəlməsini doğurmuşdur. Ailənin iki övladının qazandığı uğurlar da xatırlanmağa layiqdir. Tural Rzayev ərəbşünasdır, Azərbaycanın Küveytdə fövqəladə və səlahiyyətli səfiri kimi çalışır, ədəbi yaradıcılığa da maraq göstərir. Günel Anarqızı isə tanınmış yazıçı, bir neçə Avropa dillərinə tərcümə olunmuş "Qarabağ

hekayələri" kitabının müəllifi, eyni zamanda üç jurnalın ("Ölkəm", "Pəncərə", "Azerimobile") baş redaktorudur.

AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə Zemfira Səfərovanın "*mərkəz nöqtəsini tapıb, bütün səylərini buraya istiqamətləndirmək*" istedadını yüksək qiymətləndirərək, onu innovasiya xarakterli elmi təfəkkürə malik alim adlandırır. Bu fikirlə razılaşmamaq çətindir.

Biz kimik? Köklərimiz haradadır? Yolumuz hayanadır? Bu suallar həmişə aydınlarımızı düşündürüb. Elmimizdə həmin suallara cavab axtaranlar sırasında Z.Səfərova da məxsusi yer tutur. Heç kimin aramadığı mövzuları tədqiq edən, daim "yeni sahillər"ə can atan, bir sıra "ilk"lərə imza atan Zemfira xanımın yaradıcılıq irsi öz həcmi və ən əsası, dəyəri ilə valeh etməyə bilməz. Özü də yazılan elmi işlərin sayı ildən-ilə artır və sanki yeni keyfiyyət əldə edir. Məsələn, "Azərbaycanın musiqi elmi" kitabını rus dilində çapa hazırlayan alim, sadəcə, tərcümə ilə məhdudlaşmayaraq, əlavələrdən vaz keçməmiş, Fətullah Şirvaninin, Cabbar Qaryağdıoğlunun, Qara Qarayevin elmi irsini də tədqiqata cəlb etmişdir. Doğrusu, bu nəşri görcək onun tək bir həcmindən, gerçəkləşdirilən işin miqyasından heyrətə gələrək: "Eşq olsun Sizə, Zemfira xanım!" – söyləmək istəyirsən.

Rus dilində nəşr olunan bu fundamental araşdırma Zemfira xanımın xarici dillərdə işıq üzü görən onlarla başqa kitab və məqalələri kimi bu gün xarici oxucuları Azərbaycan musiqisi barədə məlumatlandıran ən etibarlı və çox zaman yeganə mənbələrdir. Ümumiyyətlə, Z.Səfərova Azərbaycan musiqi sənətini vətənindən kənarda təbliğ etməyə xüsusi önəm verir. Onun sorağı ən uca kürsülərdən, Paris, Tehran, İstambul, Kayseridə keçirilən nüfuzlu beynəlxalq konqreslərdən, Səmərqənd simpoziumundan, Çində təşkil olunan görüşlərdən gəlir. Məsələn, 1999-cu ildə alim Parisdə YUNESKO xətti ilə keçirilən "Dədə Qorqud" dastanının 1300 illiyinə həsr edilmiş konqresdə auditoriyanın marağına səbəb olan "Dədə Qorqudun musiqi dünyasının bəzi məsələləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Zemfira xanım Heydər Əliyev Fondunun, Mədəniyyət Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın muğam sənəti ilə bağlı reallaşdırdığı layihələrə, o cümlədən "Muğam Aləmi" festivalı çərçivəsində keçirilən beynəlxalq simpoziumlara (2009, 2011, 2013) maraqlı, dəyərli məruzələri ilə qatılaraq, simpoziumun oturumlarına sədrlik etmişdir.

Zemfira xanım müsahibələrində tez-tez Nəvvabın *"elmin ləzzətini dünyanın cəmi ləzzətindən artıq*

*hesab edirəm"* kəlməsini sitat gətirərək bu fikri özünə də şamil edir. Yəqin, gördüyü işdən, nəhayətdə zövq almaq iqtidarı, elmə sonsuz sevgi və heç zaman sən-giməyən kəşflər ehtirası Zemfira xanımın yaradıcılığını qanadlandırır, pərvazlandırır. Deməli, bizi alimin yeni-yeni tədqiqatları ilə hələ neçə-neçə gözlənilməz, maraqlı, mənalı və ibrətamiz görüşlər gözləyir*.

---

* AMEA-nın 2015-ci ildə qeyd olunan 70 illik yubileyi ilə əlaqədar Akademiyanın təsisçilərinə həsr olunmuş kitablar seriyası üçün Z.Səfərova "Akademik Üzeyir Hacibəyli: yanan ürəyin aydınlığa çıxaran sənəti" adlı yeni monoqrafiyanı yazıb "Elm" nəşriyyatına təhvil vermişdir...

"Şərq-Qərb" Nəşriyyat Evi

www.eastwest.az
www.fb.com/eastwest.az

Buraxılışa məsul: Sevil İsmayılova
Dizayner: Gülnar Qurbanova
Səhifələyici: Kübra Bədəlova
Korrektor: Nübar Qarayeva
Texniki redaktor: Fəridə Səmədova
Baş redaktor: Samirə Bektaşi
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat Evinin direktoru: Rasim Müzəffərli

Çapa imzalanmışdır: 06.06.2014. Format: 70x100 1/32. Ofset çapı
Fiziki çap vərəqi 1. Sifariş 14145. Tiraj 500

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43, Faks: (+99412) 370 18 49